# Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi regionun qabaqcıl təhsil mərkəzlərindəndir

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi regionda turizm və kənd təsərrüfatı istiqamətində kadr hazırlığı üzrə əhəmiyyətli dərəcədə seçilən təhsil ocaqlarındandır.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin tabeliyində olan Qəbələ Peşə Məktəbi və Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi birləşdirilərək, 2021-ci ildən etibarən onların bazasında yaradılan "Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi" publik hüquqi şəxs statusu əldə etmişdir.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi 1.300 kvadratmetrə yaxın sahəsi olan ikimərtəbəli və üçmərtəbəli tədris korpusları, 6 hektar ərazidə tədris-istehsalat sahəsi, 52,9 ha təcrübə sahəsi, zəngin təlim-texniki vasitələrlə təmin olunmuş ümumi sayı 70-ə çatan auditoriyalar, fənn kabinetləri, 3 laboratoriya və 5 tədris emalatxanası, 155 yerlik konfrans zalı, fondu minlərlə ölçülən kitabxana, iki böyük qazanxana, 80 yerlik yataqxana, tələbə və müəllim yeməkxanası, kompüter informasiya mərkəzi, Təhsil Nazirliyi tərəfindən verilmiş kənd təsərrüfatı texnikaları, qaynaq qurğuları, iaşə avadanlıqları tələbə və mühəndis-pedaqoji heyətimizin ixtiyarındadır.

Hal-hazırda Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində ümumi kadr heyətinin sayı 171 (İnzibati-idarə heyəti - 35, İnzibati-təsərrüfat heyəti - 37, İTU - 46, müəllimlər - 53) nəfərdir. Tələbə kontingentinin sayı isə 734 (onlardan 208 nəfəri qadın olmaqla) nəfərdir.

Mərkəzdə təhsil dövlət vəsaiti hesabına və ödənişli əsaslarla aparılır. Ümumi orta (9-cu sinif) təhsil bazasından daxil olmaqla təhsil müddəti 1 il, 2 il və 3 il (lisey) qruplarda, tam orta (11-ci sinif)

QƏBƏLƏ DÖVLƏT PEŞƏ TƏHSİL MƏRKƏZİ

təhsil bazasından isə 6 ay, 1 il qruplarda peşə öyrənmək imkanı vardır. İxtisaslarımız çox şaxəli və rəngarəngdir:

- Aqroservis mütəxəssisi;
- Üzümçülük və şərab ustası;
- Dərzi;
- Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru;
- Aşpaz;
- Arıçı;
- Əməliyyatçı-mühasib;
- Rabitə avadanlıqlarının quraşdırılması;
- Turizm sahəsində iaşə üzrə mütəxəssis;
- Turizm təşkilatçısı;
- Mehmanxana inzibatçısı;
- Qənnadçı, şirniyyatçı;
- Dayə;
- Xalçaçı;
- Çilingər-santexnik;
- Kimyəvi analiz laborantı;
- Komputer operatoru;
- İsitmə-soyutma, havalandırma sistemləri və avadanlıqları üzrə montajçı;
- Avtomobillərin təmiri çilingəri;
- İnşaat ustası;
- Bitkiçilik mütəxəssisi;
- Bərbər-vizajist-manikürçü.

Publik hüquqi şəxs olduqdan sonra Mərkəzimizdə kadr hazırlığında daha bir uğurlu yeniliyə imza atılmışdır. Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində artıq 2-ci ildir ki, yüksək texniki peşə təhsil səviyyəsinin tədrisi aparılır. Qeyd edək ki, yüksək texniki peşə təhsili səviyyəsi - peşə təhsil pilləsinin ən yüksək səviyyəsi olmaqla subbakalavr ixtisas dərəcəsi üzrə kadr hazırlığını nəzərdə tutur. Bu təhsil səviyyəsi müxtəlif texnologiya və texniki proseslərin tətbiqi, uyğunlaşdırılması və optimallaşdırılması üzrə işləri icra edəcək nəzəri və praktiki bacarıqlara sahib kadrların hazırlanmasını həyata keçirir. Peşə təhsili ilə ali təhsil pilləsi arasında keçid imkanlarını təmin edir.

Cari il ərzində Peşə Təhsili üzrə Dövlət Agentliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin birgə əməkdaşlığı çərçivəsində Elektrik-qaz aynaqçısı ixtisası üzrə qısamüddətli peşə hazırlığı kursu, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində Qəbələ Konserv Zavodunun göndərişinə əsasən "Avtoyükləyici sürücüsü" ixtisası üzrə qısamüddətli yenidənhazırlanma kursları təşkil edilmişdir.

Mərkəzimiz Respublikanın qabaqcıl peşə Mərkəzi olaraq xarici dövlətlər ilə də təcrübə mübadiləsi edir. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında imzalanan peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol" çərçivəsində hər il olduğu kimi bu il də bir qrup mühəndis-pedaqoji heyəti Türkiyə Respublikasının bir sıra şəhərlərində yerləşən peşə təhsili müəssisələrində təlim-təcrübə proqramında iştirak etmişdir. Həmçinin Türkiyə Respublikası Milli Təhsil Nazirliyini təmsil edən nümayəndə heyətinin peşə təhsili sahəsində əməkdaşlıq haqqında Protokol çərçivəsində Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinə səfər edərək təhsil müəssisinin rəhbərliyi ilə görüş keçirmişdir.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi tərəfindən fəaliyyətində daim innovativliyə əhəmiyyət verilir, tələbələrin nəzəri və praktiki biliklərinin bərabər şəkildə artırılmasına, təhsilin keyfiyyətlə tədrisinə diqqət göstərilir, heyətin bilik, bacarıqlarının artırılması təşviq və təmin edilir, tələbələrin ixtisasları üzrə biliklərə yiyələnməsini təmin etməklə yanaşı, vətənpərvərlik və vətəndaşlıq hisslərinin artırılmasına diqqət göstərilir.

**"Qəbələ"**

# Ümumtəhsil məktəblərində "Məzun günü"

Rayonumuzun ümumtəhsil məktəblərində "Məzun günü"nə həsr edilmiş tədbirlər keçirilmişdir. Bu il XI sinfi bitirən 1.222 nəfər məzun üçün məktəb həyatının




son, müstəqil həyatın ilk zəngi çalınıb. Bayram tədbirlərində rayon təhsil şöbəsinin nümayəndələri, müəllimlər, valideynlər, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, qazilər və müharibə iştirakçıları iştirak etmişlər. Tədbirlərdə çıxış edənlər ulu öndər Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı əvəzsiz xidmətlərindən, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən təhsil sahəsində həyata keçirilən uğurlu siyasətdən söz açmış, məzunları və valideynləri "Məzun günü" münasibəti ilə təbrik edərək, onlara uğurlar arzulamışlar.

# Yaş baramanın tədarükü



Bu ilki mövsümdə Qəbələ rayonunda yaş barama istehsalının 12 tona çatdırılması planlaşdırılır. Barama yetişdirilməsi üçün 75 kümçü ilə müqavilə bağlanılıb, onlara 300 qutu və ya 5,7 kiloqram ipəkqurdu paylanılıb. Artıq istehsalçılardan barama qəbulu davam edir. Qəbələli kümçülər ilk günlər qəbul məntəqəsinə 1.380 kiloqram yaş barama təhvil veriblər.

# İTMİŞDİR

Qəbələ rayon Həzrə kənd sakini **Ağalizadə Şahmar Ağababa oğluna** məxsus 06.0902013-cü ildə Traktor və Digər nəqliyyat vasitələrini idarə etmək üçün verilmiş AB 003042 nömrəli **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı Qəbələ Ərazi İdarəsi tərəfindən Qəbələ rayon Yemişənli kənd sakini **Başirov Ramiz Məmməd oğluna** verilmiş JN-0074, KOD 40615048 olan **torpaq mülkiyyətinə dair Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı Qəbələ Ərazi İdarəsi tərəfindən Qəbələ rayon Yemişənli kənd sakini **Başirov Ramiz Məmməd oğluna** verilmiş reyestr nömrəsi 406013041049, RX 1120973 nömrəli **torpaq sahəsinə aid çıxarış** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı Qəbələ Ərazi İdarəsi tərəfindən Qəbələ rayon Yemişənli kənd sakini **Başirov Ramiz Məmməd oğluna** verilmiş reyestr nömrəsi 406013041049, AA 185572 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

"Qəbələ" qəzetinin kollektivi qəzetin redaktoru **Azad Məmmədova** qohumu

**RÖVŞƏN MUSTAFAYEVİN**

faciəli ölümündən kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

"Qəbələ" qəzetinin kollektivi iş yoldaşları **Bibixanım İsrayılovaya** atası

**AĞARZA İSAYEVİN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanası PHŞ-in kollektivi iş yoldaşları **Aygün Əliyevaya** atası

**ƏİÖVSƏT ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanası PHŞ-in kollektivi iş yoldaşları **Əsgərli Səfəddin Fərman oğluna** atası

**FƏRMAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.




QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

*2023-cü ilin ikinci yarısı üçün abunə yazılışı başlanmışdır.*

**Yarımillik abunə qiyməti 15 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226** (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.**

**«QƏBƏLƏ» qəzetinin reklam xidməti**

**205-19-14, 205-15-56**



**Redaktor Azad Məmmədov.**

*TƏSİSÇİLƏR:* Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226. Redaktor: (024) 205-19-14. Ümumi: (024) 205-15-56. e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1500*